# Vasifin rənglər dünyası





Xəzərin yanar ürəyi



Qürbətdə qalan yurd



Yağmurlu payız günləri

Vasifin bir-birindən maraqlı əl işləri çoxdur. Hələ üçüncü sinifdə oxuyarkən müəllimləri çəkdiyi şəkillərə baxaraq onun gələcəkdə istedadlı bir rəssam olacağını söyləyirdilər. Artıq ümidlər özünü doğrultmağa başlayıb.

Əzim Əzimzadə adına rəssamlıq məktəbini bitirdikdən sonra Vasif Səftərov neçə-neçə yaradıcılıq müsabiqələrində iştirak etmiş, rəngarəng sərgiləri təşkil olunmuşdur. O ayrı-ayrı mükafatlara layiq görülmüşdür.

Vasifin vətənpərvərlik mövzusunda çəkdiyi rəsmlər daha maraqlıdır. Onlar öz bitkinliyi ilə fərqlənirlər. Bu haqda tanınmış sənətkarların, xalq şairləri Nəriman Həsənzadə və Zəlimxan Yaqubun, eləcə də Adil İsgəndərov adına Mədəniyyət Sarayının direktoru Hacı Əliyevin fikirləri diqqət çəkir.

Vasifin arzuları çoxdur. Onlardan biri də onun Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına daxil olması ilə bağlıdır. Vasifə bütün istəklərinə qovuşmasını arzulayır, ona yaradıcılıq uğurları diləyirik!